# Je. Carens

## Şeirlər

Azərnaşr

ՅԵՂԻՇԵ ՉԱՐԵՆՑ

# ՎՈՏԱՆԱՎՈՐՆԵՐ

Ազերնեշր — Բագու — 1934

CARENS

# ŞEIRLƏR

Azərnəşr - Bakь—1934

Ermaniçadan
ceviranі: M. Myşfiq
Redaqtoru: R. Rza
Texredaqtoru: M. Zejnalzadə
Buraqbçь: H. Rəhimov

Qabьqьnь: M. Zejnalzadə çəkmişdir

*Baş Mətbuat Mydirligi Myvəkkill. № 1898. Sifariş № 376. Tıraz 2000. Istehsalata verilmiş 28/III-34. Capa imzalanmьş 25/IV-34. Cap lisiti 1 3/4. Kaqьz formatь 62×94. Azərnəşr mətbəəsində basьldь. 26-lar adьna „Kitab Sarajь".*
*Bakь, Əli Bajramov kycəsi.*

# CЬLQЬNLAŞMЬŞ IZDIHAMLAR

I

Uzaq, jaqьn dostlara, ølkə və gynəşlərə,
Şu dərin boşluqdakь zylmət və atəşlərə,
Əmr! Janan qəlblərə, ruhu qajnajanlara—
Gynəş dolu ruhlara, odla ojnajanlara,—
Bu—sərkəş qaranlьqda syrynən məçruhlara,
Diriligə, ølymə, şəhid olan ruhlara,
Salam! Salam.

II

Aqşamdь... qan-qьrmьzь jaqut rəngli bir aqşam.
Jaqьçь, kəskin gynəş cekilirdi batьja.
Ovanьn yzərində aqьrlaşan qanlь cən.
Sacьlmьş bir zəhərdi gynəşin yrəgindən.
Jaqьçь, kəskin gynəş cekilirdi batьja
Və zəhrini ovaja hej tykyrə-tykyrə
Səmada jandьrьrdь alav saclь bir kyrə.
Bir qanlь nur təkyrdy qьzqьn gynəş ovaja.
Bir od dyşmyşdy sankь dalqalanan tarlaja.
Onlarьn qarşьsьnda ova hydudsuz, geniş...
Bir qьrmьzь od kibi, janqьn kibi sərilmiş.
Ardь, uçu gørylməz, nə qədər sejr etsəniz.
Aqşam cəni icində: ova, mərçan bir dəniz.

### III

Bu aqşam gynəşinin altında qızğınlaşan,
Getdikçə dalğalanan, getdikçə azğınlaşan.
Kөhnə ovada sajsız, сılğın izdiham vardı.
Onlar vuruşurlardı, onlar carpışırlardı.
Onlar umudla janmış, сıqmış təbii haldan,
Buraja gəlmişdilər; uzaq, jaqın mahaldan.
Şəhərlərdən, kəntlərdən, cөllərdən gəlmişdilər,
Steplərdən, myxtəlif ellərdən gəlmişdilər.
Şəhərlərdən gələnlər, qaranlıqda boğulan,
Həjatı yzərindən camurdan bulut olan,
Dumanlı kecmişini tərk edərək gəlmişdi;
Yrəgini inadla bərkidərək, gəlmişdi.
Şənliklərdən gələnlər, ataraq nəm topraģı,
Atıb tarlanı, baģı, atıb cini, oraģı,
Altun başaqsız, myti' həjatı buraqaraq,
Gəlmişdilər buraja yrəklərində maraq.
Steplərdən gələnlər, bir zindan zylmətini,
Doğuran səmaların laçivərd vys'ətini,
Hər şeji өz jerində qojaraq gəlmişdilər;
Qəlbdən bu izdihama ujaraq gəlmişdilər.
Ğalabalıq, darısqal şəhərlərdən gələnlər—
Gөjləri hisli, paslı bu jerlərdən gələnlər,
Vərəmli nəfəsilə өtyrmyşdy qəlbini,
Bir qızıl bajraq kibi gətirmişdi qəlbini.

Şənliklərdən gələnlər bir sel kibi aqaraq,
Kəndin qaranlıģını uzaqda buraqaraq,
Gətirmişdi qolunda nəm topraģın gyçyny.
Dөjyşdə jaģısından alaçaqdı өçyny,
Steplərdən gələnlər—bir qulmuş өz jerində.
Dənizlər kibi durğun, səmavi gөzlərində.
Gətirmişdi gөjlərin sonsuz ənginligini,
Dənizlərin, gөllərin dərin dərinligini.
Onlar isjanlanaraq, onlar сılğınlaşaraq,
Kecidlərdən syzylyb dərələrdən aşaraq,
Artıq cəkə bilməmiş əski, myti' həjatı,
Həpsinin bu dөjyşdə acılmışdı qanatı.
Həpsi bir nəfər kibi... toplaşaraq ovaja.
Bir sarsılmaz inadla hazırdılar davaja.

### IV

Qızğın, sacaqlı gynəş cəkilirdi batıja.
Sankı bir mis ərgini tөkylyrdy batıja.
Gynəşin qarşısında sərilmiş geniş ova,
Izdihamlar carpışır, nəğmə dodaqlarında.
Ğejzi gөjlərə sığmaz сılğın izdihamların!
Ova durğun cənində jıqanır aqşamların.
Bөjyk şəhər uzaqda, jol ystə gөrynyrdy,
Parlajırdı min rəngli bir ərginə dөnyrdy;
Jıqanırdı bu aqşam dumanının altında,
Bir dərdsizlik, bir tənbəl nazlılıq vardı onda.
Acılmışdı qır-qızıl havadan jyksək evlər;
Evlər toranlaşaraq, qaralır birər-birər.

Baq. o qana bojanmьş gynəş odilə baq'da,
Pənçərələr, ajnalar alavlanьr uzaqda.
Gynəşin jamaçьnda şişələr qьzьllaşьr.
Şişələr bir gөz kibi gynə baqьb qamaşьr.
Onlarьn yrəgində kəskinləşir intiqam,
Varlьqь qan-qьrmьzь alav rəngli bir aqşam...
Qьzarmьş mьxlar kibi səmanьn yrəginə,
Sançьlmьş baçalar da bojanmьş qan rənginə,
Onlarьn borusundan qara duman cьqmajьr,
Bu duman qatlarilə yfyqləri sьqmajьr.
Lakin aqşamьn cəni javaş-javaş coqalьr.
Icində dik baçalar rəngsizləşir, joqalьr.

## V

Aqşam qanlь-qьrmьzь bir tylə byrynyrdy.
Şəhərin çənubunda stasjon gөrynyrdy,—
Qorqmuş qalib bir halda, bir tərəfdə duman, toz...
Toz, duman arasьnda səslənirdi parovoz,
Sankь orda bir cьlqьn mal boqazlajьrdьlar.
Onun umudsuz səsi jajьlьb dijar-dijar,
Geri dөnməz bir өlym xəbəri dujulurdu.
Izdihamьn өnyndə bir stasjon dururdu.
Stasjondan dөrt jana bitməz jollar uzanmьş.
Məhkəm dəmir damarlar, məhkəm qollar uzanmьş.
Dəmir damarlar kibi jeri quçaqlajaraq,
Dyşmənlər syrynyrdy sankь bir atsьz qacaq.
Dyşmənlər syrynyrdy jerdə bir oqru kibi.
Jollarьn ajrьçьnda stasjon sorqu kibi...



Dəlirmiş izdihamlar çoşub carpьşьrdьlar.
Onlar vuruşurdular, onlar qarpьşьrdьlar.
Jajьlmьşdь bir atəş həpsinin yrəginə.
Sankь bir qalib əllə bu dynjanьn rə'jinə.
Atьlmьşdь oqujan—dөjyşən bu izdiham.
Stasjonu almaqa tələsirdi bu aqşam.

## VI

Onlar carpьşьrdьlar, hava sərin, coq sərin,
Ruzgar nəfəs alьrdь ovada dərin-dərin.
Min illik dyşmən kibi şəhər qarşьda durmuş.
Çəsim bir Sfinqs kibi dөşyny jerə vurmuş.
Kəsmişdi iradəli izdihamьn jolunu.
Bir qьrmьzь dumanda dəmir jol stasjonu.
Xanьmьnь gөzlərsə əsil bir kөpək neçə,
Stasjon da bu şəhri gөzləjirdi өjləçə.
Dəmir xətlər janьnda jer altь səngərə baq.
Bu xaraba səngərdə syrynən əskərə baq.
Dyşmən izdihamlarь zirzəmidə saqlajьr,
Qanlь barmaqlarilə ovanь çьrmaqlajьr.
Topraqьn sinəsində dyşmən girmiş pusquja.
Sankь ova bir dəniz, dyşmən atьlmьş suja.
Qurşun atьr o xajin əlilə oqru kibi.
Jaqьnlaşьb yz-yzə carpьşьrlar əsəbi.
Bir-birinin dalьnça dəmir toplar gurlajьr.
Jerdə, gөjdə daqьlmьş al mərmilər fьrlajьr.
Izdiham qorqu dujmaz, qorqu sarsa aləmi,
Bu hərb qərbdə bir şirin şaqqьltьlь nəqməmi?

## VII

Onlar carpьşьrdьlar, ølyb-øldyryrdylər,
Ovadakь qaranlьq, ølymə gylyrdylər.
Izdiham nə'rəsini toplarьn nə'rəsinə,
Qatьb irəlilərdi dyşmənin bərəsinə,
Izdiham irəliləjir, dyşmən uzaqda şaşqьn,
Hər birinin yrəgi bir nəƣməjdi ki,—daşqьn.
Qьzьl bir şø'lə kibi baqьşlar janьrdьlar,
Bu aqşam gynəşini bir nəƣmə sanьrdьlar.
Varlьƣь qan-qьrmьzь alav rəngli bir aqşam,
Oqujub carpьşьrdь bu dəlirmiş izdiham.

## VIII

Bir kişi titrək, qalьn səsilə oqujurdu,
O, davaja qalqьşan dostuna toqujurdu.
Səsinin tellərindən bir tə'rif nəşidəsi.
Bir şahin nəƣməsini andьrьrdь nəƣməsi,
Onun bir şahin kibi qalqan nəƣməsi vardь,
Bu nəƣmənin bənzəri qьzьl ьldьrьmlardь.
O kişi oqujurdu gylyşlə, həjəçanla,
O səslənirdi çoşƣun, o carpьşьrdь çanla.
Gynəş sønyr yfyqdə sarь bir oçaq kibi,
Nəƣməcinin sədasь sərt bir çьnƣьraq kibi.
Gynəş sankь oçaqdь,
O səs bir cьnƣьraqdь.
Uçaldьrdь səsini daƣlar, daşlar eşitsin,
Jadlar, dostlar, vətənsiz vətəndaşlar eşitsin.
Varlьƣь qan-qьrmьzь alav rəngli bir aqşam,
Oqujub carpьşьrdь bu dəlirmiş izdiham,



## IX

Meşələrdən, çøllərdən, şəhərlərdən gəlib biz,
Odlanmьş, umudlanmьş bir yrək gətirmişiz.
Burda imdi davadьr, ølym mybhəm qaranlьq...
Bir qьzьl bajraq kibi ølymə qarşь sьq-sьq.
Sinəmizi acmьşьq. Qəlbimiz vurur—atьr.
Min illik køhnə gynəş qana bojanmьş batьr.
Boz geçənin qan dolu gøzləri gylyr bizə,
Sevinçlə carpьşьrьq, gyç verib nəƣməmizə.
Bytyn aləm bizlərə min illik dyşman kibi...
Gørmiş dyşmən gøjsyny bir dəmir qalqan kibi.
Lakin biz jorulmadan carpьşьrьz jenə də,
Bu døjyş çəbhəsində—bu alavlь səhnədə.
Bizə məƣrur ølymlər, iskeletlər gylyr, biz,
Qəlbimizi bu hərbə qurbanlьq verəçəgiz.
Cьlƣьnlaşьn, atьşьn! a joldaşlar, a dostlar!...
Bir qьzьl həsrət kibi rəsmi-kecidimiz var.

## X

Aqşam, aqşam ƣyrubu lalə kibi bir aqşam.
Amansьzça carpьşьr bu dəlirmiş izdiham.
Lalə kibi qьzarьr izlərinin atəşi.
Qəlblərinin atəşi, gøzlərinin atəşi.
Mətin zərbələrilə izdiham irəliləjir.
Dyşməninə jaqьndan ølymy xəbərləjir.
Izdiham irəliləjir. Oqujaraq, atьşьr,
Dyşmən qacьr, ajaqlar bir-birinə qatьşьr...
Artьq toran qavuşdu. Dyşmən də qacdь, qacdь
Izdiham stasjona zəfər bajraƣь sançdь.

## XI

Indi hər jer qaranlьq, geçə aşaqь enmiş,
Bajquş qanatlarilə zylmət ətrafa sinmiş.
Ьşьqsьz stasjonda izdiham qələjansьz
Uça dəmir kəmərlər qaranlьqda nişansьz
Ьşьq jandьrmajьrlar gөrməsin dejə dyşman
Qaranlьq uzaqlara dalan gөzlər nigəran
Stasjon alьnarkən qaranlьq endi, endi
Batan gynəş qararmьş yfqyn ardьna sindi
Sabahь acmaq ycyn izdiham rahatlanьr;
Yrəklərin qapaqь javaş-javaş atlanьr
Əvət onlar cicəkli sabahь gөzləjirlər,
Rө'jalarьnda belə, dyşməni izləjirlər.
Bir az əvvəl ovada susamьş carpьşan bu—
Bu dəhşətli izdiham həjəçansьz ujqulu
Bir az əvvəl stasjon dyşmənin əlindəjdi;
Geri dөnməz bir hyçum haman dyşməni əjdi.
Izdiham stasjona ьldьrьm kibi endi
Bir baş şəhərə doqru dyşmən qacdь, gizləndi...
Sabahь acmaq ycyn izdiham rahatlanьr.
Yrəklərin qapaqь javaş-javaş atlanьr.
Sabah jenə izdiham cьqaçaqdьr səfərə,
Qət'i hyçum japaçaq өnyndəki şəhərə.

## XII

Geçənin qaranlьqь, min illik bir qaranlьq,
Stasjonda izdiham səssiz... ova dumanlьq.
Yfyqlərdə baqьnьr ьldьzlar sejrək-sejrək.
Nə bir səs, nə bir səda, nə də bir xəfif kylək.



Orda sonsuz qaranlьq, bir ərinti syzylyr.
Bir qara şybhə kibi syzylərək yzylyr.
Orda bir dyşmən kibi şөngymyş bir duman var.
Orda bir kөhnə şybhə kor gөzlərilə baqar.
Qararmьş gөzlərini, o şybhə, o sərt duman,
Cekməjir cьlqьnlaşan gөj gөzly izdihamdan.
Ystyn, gərgin, qajqьlь baqьşlarla izdiham.
Əngin uzaqlьqlara baqьb dutmajьr aram.
Qəmli, dərin səmavi gөzlər sejrə gedirlər,
Pajansьz qaranlьqь myşahədə edirlər.
Geçə dərin, qaranlьq, geçə saqьr, kor və lal,
Stasjonda çanlanьr get-gedə bir qejly-qal.

## XIII

Stasjonun өnyndə bu gynəş iradəli
Ordu gөj gөzlərilə baqaraq, dəli-dəli.
Zəbt etdigi hejbətli ovanь qorujurdu;
Ovanь qorujurdu bu mavi gөzly ordu.
Jamaç bytyn qaranlьq, orda bir ucurum var,
Uzaqda bir oçaqda dalqalanьr ьşьqlar.
Janan ьşьq diləkli baqьşlarьn өnyndə,
Bir sərt qьrmьzь nөqtə, bir kyrə gөrynyşyndə.
Bu qaranlьq geçədə dyşmən ьşьq jandьrmьş,
Өzyny hazьrlamьş, ordunu ojandьrmьş.
Bu geçədə o nөqtə bir qьrmьzь it başь...
Bu qьrmьzь it başь andьrьr bir təlaşь.
O nөqtə qorqusundan sinmiş dyşmənə bənzər.
O min illik şəhərdir, orda bir dəhşət gəzər.

O nəqtə ьşьqlьdьr, qьzqьndьr, dəhşətlidir.
O nəqtə baçarьqlь, o nəqtə pək myqtədir,
Son bir umud hymmasь onu jandьrьr, jaqьr.
Dəlirmiş izdiham da haman nəqtəjə baqьr.

## XIV

İzdiham gəzlərilə o nəqtəni izləjir.
Zylmətdə dan jerinin səkməsini gəzləjir,
Onlarьn sinəsində o nəqtə bir mьx kibi,
Bataraq, zəhər təkyr qьzdьrьr ruhu, qəlbi.
Onlarьn kyrəgində min illik bir aqrь var,
Onlarьn kəryk kibi bir janqьlь baqrь var.
O nəqtə hyma səpir. Onlarьn qejzi artьr.
Əskimiş jaralarьn sərt kəzyny qopartьr.
Bir dilək var səmavi gəzlərində onlarьn;
Qan sacьr, zəhər təkyr gəzləri miljonlarьn.
O nəqtəjə, o parlaq ьşьqa baqьr onlar;
Bu cьlqьn izdihamlar, bu gəj gəzly miljonlar.

## XV

Onlarьn qara ruhu geçəjə qarşь geçə,
Həsrətlə qavrulurlar sabahь gəzlədikçə.
Onlarьn qəlbi zylmət, bu qart zylmətdə lakin.
Gəjlər var—mavi gəzly, dənizlər kibi sakin
Onlarьn baqьşlarь səmalar kibi parlaq.
Qəlblərində bir sabah, bir atəşin fidan var.
Gərilmiş qollarьnda topraqьn nəm qyvvəti,
Gyç vursalar dajanar qoça ərzin syr'əti.

İstəsələr gynəşə jeni syr'ət verərlər.
Jeni alav, jeni qəlb, jeni qydrət verərlər.
İstəsələr gəjlərə fьrlatarlar gynəşi,
Min bir çahan jandьrar qəlblərinin atəşi.
Onlarda sarьlmajan gynəş bir iradə var.
Nələr, nələr jaratmaz dəlirmiş izdihamlar?!!...

## XVI

Aqьr qaranlьq geçə, aqardьqça dan jeri,
Bir buz kibi ərijir, gəzləjiş saatləri,
Səhərin—sərin jeli ovanь sərinlədir,
Dəjib daşlara şəffaf qavalьnь inlədir.
O qьrmьzь nəqtənin ьşьqь batьr, sənyr,
Qaranlьq sejrəkləşir, qьzьl şəfəq gərynyr.
Doquda gyçly bir qol daqьdьr bu zylməti,
Qoqulanьr ovada bir bahar təravəti.
Dərin zylmət myntəzir... aqaran dan jerinə,
Rəngsizləşir, bənzəjir bir qaranlьq ərginə.
İştə məqrur, dəmirdən baçalarla bərabər,
Bəlirməkdə uzaqdan jyksək divarlь evlər.
Şəfəq səkyr izdiham duta bilərmi aram.
Qəlbində izdihamьn min illik bir intiqam.
Onlar aqьnlarьnь bu şəhrə cekəçəklər,
Səfralarьnь şəhrin ystynə təkəçəklər,
Jьqьb daqьdaçaqlar jenə dojmajaçaqlar.
İnsafa, ədalətə məhəl qojmajaçaqlar.
Jьqьb jandьraçaqlar, hər şeji qьraçaqlar.
Alavlarьn icində gylyb hajqьraçaqlar.

Səpəçəklər əlkəjə çahan-çahan atəşlər,
Bu atəşlər yzyndən qaralaçaq gynəşlər.
Kyllyklərdən əskimiş həjat cьqmasьn, dejə,
Hər kyllygə bir alav edəçəklər hədijjə.
Ellərə verəçəklər o sojumuş kyllykləri.
Doƣmamьş gynəşlərdən gedəçəklər iləri.

## XVII

Odlu bir zanbaq kibi yfyqdə doƣdu gynəş.
Başsьz qaranlьqlarь boƣduqça doƣdu gynəş.
Gynəş doƣdu jerindən bir təbəqə sьcradь.
Sьcradь sankь ərzin ən məhkəm bir qanadь.
Gəzlər alav kəsildi, baqьşlar catьldьlar,
Stasjondan ansьzьn dьşarь atьldьlar.
Qarşьda sonsuz ova... yfyqdə şəfəq janьr.
Gynəş rəngli bir duman ortadan xumarlanьr.
Şəhər sankь bir sirqdi, şəhər sankь bir qaja.
Jollarьn ətəgində parlaq rəngli bir oja.
Gəzlərini alavlь gynəşlərə dikərək.
Atьlaraq, qalqaraq, syrynərək, cəkərək.
Odlanmьş ənginlərdə carpьşьrdь izdiham.
Vuruşurdu izdiham, qapьşьrdь izdiham.
Min bir qatь gynəşlə izdiham bəhs edirdi.
Cьlqьnlaşmьş gynəşi zəbt etməgə gedirdi.

---



# EL YCYN NƏƢMƏ

Əlkə uçsuz buçaqsьz... Əlkə hydudsuz geniş...
Su basarlar, steplər, saƣa, sola gərilmiş.
Yfyqdən-yfyqlərə uzanmьş qarlь dyzlər,
Bulutlar kəlgəsində kəntlər dərdsiz bəxtəvər.
Ta şimaldan çənuba, şərqdən ƣərbə catьnça
Jerin şimal parcasь bir əlkejdi—qos-qoça.
Hakimdi mystəbid car, o məhtəşəm əlkədə.
Həm o gəzəl məmləkətin elləri təhlykədə.
Ellər təhkimdi... Ellər topraqsьz calьşьrdь.
Mal kibi bir ƣajəsiz həjata alьşьrdь.
O səfil aç elləri, o jazьq muziqləri,
Daim minib syryrdy əlkə cinovnikləri.
Muziqin gəzy qorqmuş, qəlbi sakit vururdu.
Əlkənin topraqlarь syrylməmiş dururdu.
Topraqsьzdь kəntlilər, mylkədarlar amansьz.
Aƣanьn topraƣьnь beçərən kəntli—çansьz.
O tarlasьz səfil xalq, kirimiş dəjylyrdy.
Açьndan daş jejirdi, yzylyrdy, əlyrdy,
Dərdindən araq icir tynlyk mejxanələrdə
Jatьrdь ki: «Ojanьb jeməsin daha bir də.
Dya edib dururdu qəlbində ulu tanrь
Jetim, bojnu bykyly hej baqьrdь juqarь.
Inanьrdь: juqardan bir gyn ьşьq doƣaçaq.
Əlkəni culƣalajan qaranlьƣь boƣaçaq.

Kəntli topraqlanaçaq, bytyn xalq o zamandan;
Qurtulaçaq dəhşətlər dolu qara zindandan.
Nə dyadan sevindi o zavallь xalq, nə də,
Dərdinə carə buldu dumanlь mejxanədə.
Өlkə bir qan dərjasь, ehtijaçlar tykənməz.
Qan savuran qəhətlik өz mevqeindən enməz;
Dolaşьrdь өlkənin sisli yfuqlarьnda,
Solƣun tarlalarьnda, jetim qoruqlarьnda.
Illərçə o dijarda gynəş doƣdu qanalmьş,
Batarkən өzy kibi gөrdy ellər qanalmьş.
Gynəş qьlьnçla cьqmьş, qanlь gөz kibi sьqdь.
Jaƣan qatь qaranlьq, jaƣmajan bir ьşьqdь.
Өlkə bir qan dərjasь, nəƣmələrdə ƣəm səsi,
Bir sijah өlym səsi, bir uzun matəm səsi,
Sөnmyş iqtidar, e'çaz;

*

Fəqət coqdan bir muziq,
Cьqdь bir şej jaratdь sankь joqdan bir muziq.
Ətrafьna topladь jalavaç rənçbərləri,
Ajaq jalьn, baş acьq jurdsuz dərbədərləri,
Məqsədi qurtuluşdu... bu açlar kөməsilə,
Hajqьrdь, vəlvələlər qopardь gur səsilə.
«Ej joqsullar, topraqsьz insanlar bəri gəlin,
Jetər qaldьnьz geri, bir az irəli gəlin,
Bu caj aqьntьsijlə barabar toplaşьnьz.
Ej minlər, ej jyz minlər, miljonlar toplaşьnьz
Toplaşьnьz bu gyndən sizin aç ordunuzu,
O səfil ordunuzu, o mөhtaç ordunuzu;



Carьn şəhrinə kibi aparaçaƣam gəlin.
Mosqvanь jerindən qoparaçaƣam gəlin.
Orda siz dyrly-dyrly keflər cəkəçəksiniz,
Nə qədər istəsəniz araq icəçəksiniz,
Məskəniniz olaçaq carьn parlaq binasь,
Car təxtindən gələçək məzlumlarьn sədasь.

*

Toplaşdьlar gəldilər jyzlər, minlər, miljonlar,
Malь, mylky, tarlasь, çiftligi olmajanlar.
Onlar qoşub bir ordu halьnda toplaşdьlar.
Əngin ummanlar kibi dalƣalanьb daşdьlar.
Secilməzdi bu ordu bir sel uƣultusundan.
Meşə hajqьrtьsьndan, tufan gurultusundan.
O minlər ordusundan ellər qorqdu cəkindi.
O minlər ordusunun kini başqa bir kindi.
Ordunun nəƣməsindən məsrur səslər qopurdu.
Qaranlьq meşə kibi təprəndi jola ordu
Haman cajьn əksinə olaraq dalƣa verdi,
Sel kibi өnyndəki qajalarь dəvirdi,
Bөjyk imarətlərin jellər əsdi jerində,
Sahib kibi oturdu topraƣьn yzərində.
Bir necə gyn duruldu gynəşin qanlь gөzy.
Al şəfəqlər byrydy nəş'ə dolu gyndyzy.
Uzaq-uazq steplər çoşaraq, dalƣalandь,
Muziq qoşdu tarlaja topraƣa aƣalandь,
Bөjlə oldu...

*

Nə jazьq... birdən carьn ordusu,
Ucdu, gəldi juqarьdan sankь bir caƣlajan su.

İki ordu vuruşdu bəjyk mə'rəkə qopdu.
Muziqlərin umudu su kibi jerə hopdu.
Bir qədər carpьşdьlar joqsullar tərəfindən.
Alьnan şəhərləri geri aldьlar həmən.

Qajtardьlar bəjlərin jarьm ucuq mylkyny.
Daqьtdьlar jyzlərçə açlarьn bəlygyny.
Açlardan alaj-alaj əsir alьb getdilər.
Onlarьn qara gəzly dostunu inçitdilər.

Bir qəfəsə saldьlar onu çanavar kibi
Atьlьrdьlar ystynə açьqmьş qurtlar kibi
Onu carьn şəhrinə, Mosqvaja aldьlar.
Bu gedişdən bytn el, bytyn əlkə xəbərdar.

O jenildi, alı o ki, jenilməz daq kibijdi,
Jetim rus əlkəsinin qejrətli sahibijdi,
El bilirdi o mydhiş əzabla ələçəkdi.
Rəhbərinin jolunda uzun-uzun qəm cəkdi.

Şəhnişinin canlarь cьnlajьb calan zaman,
İzdihamьn icindən gətirildi qahraman
Çəllad qartal kibijdi... Ijitin başь jerdə.
Haman baltaja qurban oldular əsirlər də.

Tikə-tikə doqranьb gəzləri cьqarьldь,
Bu dəhşətdən gəjlərin bulut baqrь jarьldь.
Ovalara mejitlər ləşlər kibi dyzyldy.
Əli joqsulun jenə hər bir şejdən yzyldy

Vuruşdu zavallь xalq, alamadь dinçini,
Burnundan gətirdilər bir anlьq sevinçini.
Jenə gynəş, ovulmuş qanlь gəz kibi cьqdь,
Syalarь bir oqdu, sanma ki, bir ьşьqdь.



Fəqət jenə əlkə əz doqmaça bəstəsində.
Bəstəsinin ən şirin gəzəl şikəstəsində.
Bir su kibi aqьtdь o ijitin adьnь,
O ijit ki, acьrdь muziqin qanadьnь.

*

Kecdi ajlarь ajlar qovdu illəri illər,
Gynəş doqdu qanalmьş, qana dəndy gonyllər.
Dəjyş ara vermədi, qara, açь bir dəjyş,
Bir janda da açlьqьn həkymranlьqь mydhyş.
Bir jandan tatar vurdu, bir jandan poljaq vurdu.
Bir jandan da Tyrkijə gəjdən alav savurdu.
Jaqьş kibi jaqmada əlkəjə mərmi, qurşun,
Carьn məs'ud jurduna dərt jandan girir qoşun.
Hər tərəfdə xəstəlik insanlar iki byklym,
Əlində qanlь dərjaz kəntləri gəzir əlym.
Qara bir kabus kibi, tufan kibi kecirdi,
Qarşьsьna gələni doqrajьrdь, bicirdi.
Suja dyşmyş bir pətək halьna girmiş həjat.
Yfyqlərdə alcalьş, jerlərdə, açь fərjad.
Geniş bozqurlarьnda şimalьn bu zamanda.
Dəmir iradəsilə doqdu bir qahraman da.
Onun da dəjyşləri gizli dejil, acьqdь,
Əfv etməz bir açьqla, qəzəblə hərbə cьqdь.
Ona təkrar əlsizlər, ajaqsьzlar qoşuldu.
Baqsьzlar, tarlasьzlar, topraqsьzlar qoşuldu.
Qoşulan kələlərdən bəjyk bir ordu cьqdь.
Bəjlərin əmlakьna bir atəş vurdu cьqdь.
Dedilər: «Jer yzyndə bəj qalmasьn bir daha.

Min ɵlym mylkədara, min ɵlym padьşaha,
Əli oraqlьnьndьr Rusja bundan belə,
Bu olursa ɵlkədə daşlar da gələr dilə»
Syvarilər qoşdular, şəhərlər zəbt etdilər,
Mosqvanьn aq qarlь jolunu bərkitdilər.
Ançaq jalavaçlarьn dərdini anlamajan,
Carьn ordusu qoşdu, gah atlarla gah jajan.
Qoşdu, aman vermədi jenə carьn əskəri,
Dutdular qara gɵzly o qahraman rəhbəri.
Təslim oldu qalibə daqьldь syvarisi,
Klidləndi ɵmrynyn irəlisi, gerisi.
Gətirdilər rəhbəri dyz sahьn pajtaxtьna.

Jolda əsmər gɵjsyny bojadьlar al qana.
Tyfyrdylər ystynə, qanatdьlar yzyny.
Ojlə inçitdilər ki, açamadь gɵzyny.
Birinçi ijit kibi, vurub qьjdьlar ona.
Gətirdilər min illik Mosqva mejdanьna.
Təkrar minlərlə çanlar caldь, cьnladь, caldь
Qorqunç gejimli çəllad onun ystyny aldь.
Qara gɵzly rəhbəri, qəfəsdən cьqardьlar,
Əllərini baqlajьb qollarьnь qardьlar.
O çəsur gɵzlərijlə xalqьna baqdь, baqdь.
Qьzaran gɵzlərində şimşək parladь, caqdь
Istədi «durun» desin istədi ki, baqьrsьn,
Əzilmiş rus xalqьnь isjanlara caqьrsьn.
Lakin onu dutdular, baqladьlar aqzьnь,
Gɵmdylər ɵz qəlbinə qəlbindəki arzьnь.
Danьşmadь... Çəlladьn aqьr zərbələrindən,
Boqulan coçuq kibi səsi batdь. Jerindən.



Sarsьldь. Arqasьna kəndələjib qolunu.
Diz ystə oturtdular xalqьn ijit oqlunu.
Başьnь əjən kibi iti pьcaq parladь,
Jenə də joqsullarьn susduruldu fərjadь.

Təsəllisiz, umudsuz kecdi pajansьz illər.
Bulunarmь həjatь dəjişəçək bir nəfər,
Hər jerində həjatьn umudsuzluq: cəgirgə
Kibi ruhlar ystynə salmьşdь qara kɵlgə.

Qьtlьq təradi, artdь kecdi illər qaranlьq.
Muziq hec bir ijitə bel baqlamadь artьq.
Cynky o dar gynlərdə tufanlar kibi qalqan,
Qahramanlardan hələ coq-coq gyçlyjdy dyşman

Xalq susdu təsəllisiz həjata qane' qaldь.
Illərçə qorqunç bəjlər əllərdən qanьq aldь.
Matəmli gɵjlər qara, qərib steplər qara,
Qarşь cьqmadь kimsə azqьn padşahlara.

Bojləçə illərlə xalq işləndi, cəkdi alьlar.
Xalqa yz gɵstərmədi gymyş gɵzly sabahlar.
Fabriklər acьlьnça, kəntlər şəhərə doldu,
Min əlli kɵmələrlə fabriklərə soquldu.

Uzaq jerlərdən gələn, bu mɵhtaç izdəhamlar.
Əmək oçaqlarьnda bir-bir dutdular qərar.
Satьşa cьqardьlar dəmir musqullarьnь.
Jazьq, uçuz qijmətə satdьlar qollarьnь.

Onlarьn hec bir şeji joqdu, hec olmadь da.
Qaldьlar şəhərlərin dumanlarь altьnda.
Amma qəlbləri jandь, bədənləri bərkidi.
Uzaqdь onlar əski əvam kəntlidən indi.

Əmək oçaqlarında zildən vurduqça fitlər,
Onlar jeni dynjalar, çahanlar eşitdilər.
Makьnalar isjankar nəqmələr oquduqça,
Qanatlandь ruhlarь quş kibi uca-uca.

Avam kəntli bir qьşda işçi olmuşdu artьq,
Gəzləri gynəş kibi, fikirləri ap-acьq,
Indi onlarьn bəjyk təsəvvyrləri vardь,
Xəjallarь səmadan qartallarь boqardь,

Bəjlə oldu və işdə hər sarsьlmaz şəhərdə,
Tystydən gynəşlərin gəz acmadьqь jerdə,
Işcilər barəsində, zylmətlər barəsində,
Dynjadakь dəjyşlər, dəhşətlər barəsində;

Bir sabah uzun-uzun baçalar ətər oldu.
Bu ətyş bir qijamdan, isjandan bətər oldu.
Dedilər ki, dynjada ançaq iki ordu var,
Bunlarьn biri zəngin aldadьçь sahibkar,

Onlar ki, işləməzlər rahat jaşarlar amma,
Onlar ki, dynjalarь jejərlər bir otruma.
Onlar ki, əllərində kaşanələr, sarajlar,
Onlar ki, başlarьnda bir dərin ucurum var,

Onlar ki, jajda sərin, qьşda isti gejərlər,
Onlar ki, kəpyrynçə, partlajьnça jejərlər.
Qusurlar, qusduqlarь şeji təkrar jeməkcin.
Qavrulurlar çahanь udmaqcьn icin-icin.

Onlar ki, şəhərlərin, kəntlərin sahibidir,
Onlar ki, bir div kibi, bir əzdəha kibidir.
Ehtişamlь sarajlar, qalalar əllərində.
Ucar səadət quşu başlarь yzərində.



Onlar ki, joqsullarьn çərəgini jejərlər.
Bu talei jaradan şəxsə «gəbər» dejərlər.
Lakin ikinçi ordu, o bəjyk caqlajan su.
Minlərçə zəhmətkəşin sarsьlmajan ordusu.

Onlar ki, min illərin zəhmətini jaratdь.
Onlar ki, səadətə uzaqdan gəz aqartdь.
Onlar ki, indi min-min sajsьz, hesabsьz onlar,
O dəmir əzələli, tunç damarlь miljonlar.

Onlar ki, gynəş kibi janan ruhlarь vardьr,
Onlar ki, dynjalarьn şənligini jaradьr.
Onlar ki, topraqlarь alt-yst edir, cevirir,
Onlar ki, şah daqlarь bir hamlədə devirir,

Onlar ki, məçrasьnь dəjişir nəhrlərin,
Onlar ki, quçaqьnda jaşajьr şəhərləri.
Onlarьn ki, sinəsi dalqa'ara acьlmьş,
Gəzlərindən həjata gur ьşьqlar sacьlmьş

Onlar ki, dərin-dərin mə'dənləri deşirlər.
Hej dəmir jollarьnь bir sap kibi eşirlər.
Ah onlar ki, həjatьn qyvvəsi, gyçydyrlər.
Bəşərin təbiətə qarşь bir evçydyrlər.

Onlar ki, hər bir şeji jaratmьş, çan qojaraq.
Kecmiş onlarьn olmuş, onlarьndьr, olaçaq.
Səadətlər, məhsullar, mə'dənlər, nələr-nələr,
Işcinindir-işcinin səjlədi makinələr.

Bir gyn səsləndi fitlər qorqunç uvultularla.
Dedi bu iki ordu atьlaçaq çıdala.
Şəhərlərə jajьldь isjankar odlu bir səs
«Ej işcilər toplaşьn» diksindi qalqdь hər kəs.

Toplandь işçilərin daƣьlmьş sьraları,
Toplandьlar, gəldilər, sьqlaşdь araları.
Makinələr onlarьn qəlbinə «çoşun» ded..
Bu syrəkli døjyşə «birlikdə qoşun» dedi
Hajdь cьƣьn vuruşa, bir qazanьn zəfəri,
Qalmasьn işçilərin arqada bir nəfəri.
Onlar bir geçə vaqtь døjyşə atьldьlar.
Gynəşli kəlmələrlə qanlar qajnatьldьlar.
Işci, kəntli qaharaman ordusunu cьqardь,
Gøjlərdə dalƣalanan alavlь bajraqlarь.
Sahьn əskərlərinə qarşь gøjys gərdilər
Azadlьq jollarьnda xejli qurban verdilər
Steplilər, daƣlьlar birçə kənarda durdu,
Onlarь da kecmişin təhlykəsi susdurdu.
Nə qədər qan tøkyldy, getdi ijit joldaşlar.
Qьlьnçlarьn uçunda ojnadь qanlь başlar.

Onlarь susdurdular əzgin-yzgyn və bəzgin,
Fabriklərə døndylər jenə qəlblərində kin.
Jeni vuruşmalarcьn onlarьn ruhu ançaq,
Məhbəslərdə døjylyb oldu tunç kibi qьvraq

Bøjyk zylmət ruhuna qyvvət verdi onlarьn,
Bu zərərdən acьldь gøzləri miljonlarьn.
Zylmət və hərb sahibsiz, køməksiz zavallь xalq,
Oƣul bəslədi ançaq amirlər dedi: qalq-qalq.

Xalq oƣlunu gøndərdi məçhul dyşmənə qarşь,
Getdi ikinçi oƣlu, ikinçi yrəkdaşь.
Səfil qaldь bytyn ev getdi minlər, miljonlar,
Uzaqlarda nişansьz gømyləçəkdi onlar



Jerdə gøjdə partlajьş, jerdə gøjdə duman, toz,
Øpəçəkdi onlarь qajnar dilli metraljoz.
Tyfənglər ьslьqlajьb toplar caƣьraçaqdь.
Dil bilməz ovalarda onlar baƣьraçaqdь

Qazlarьn sarь çəni, onlarьn yzərinə,
Enərkən dyşəçəkdi min jara ətlərinə.
Onlar qan tyfyrəçək, onlar qan qusaçaqdь.
Onlar bu çəbhələrdə həjatdan coq uzaqdь.

Sьçaq oqşajьşьjla ølym qarşьda durmuş,
Onlarь gøzləjirdi sankь bir qara bajquş.
Evlərdə jorulmadan gøzlədilər yc sənə,
Baqdьlar ørtylməjir bu façiəli səhnə.

Gyllə, mərmi, qaz, qьlьnç, ølym gəzən jerlərə
Su kəsilmiş nəzərlər baqdь-baqdь nə carə.
Bøjlə oldu: minlərçə fabriklərin icindən,
Minlərçə gur əhali təprəndi, gøjə dəjən.

Baçalar əskərlərə gøjdən caƣьrьş atdь,
«Sən əskərlərə gyllə atma» bir səs uçaltdь.
Işcilər gørdylər ki, joq bu døjyşyn sonu,
Øz sьçaq søzlərilə dolaşdьlar ordunu.

Əskərə dost oldular, jatmьş əskər ojandь.
Haman gyndən steplər jeni atəşlə jandь.
Ordu bytyn silahь ataraq, døndy geri,
Təxtə qarşь acьldь toplarьn mərmiləri.

Bytyn ølkə təprənib qalqdь bir əskər kibi
Bytyn ølkə ojandь qьzьl bir səhər kibi.
Ajьldь, geri døndy əskərlər çəbhələrdən.
Uzaşdьlar əskidə qaralan şybhələrdən.

Eşikdəki dyşmənlə dalaşmьrьq dedilər.
Əlimizi kimsəjə biz acmьrьq dedilər.
Dedilər, bolyşməgə əçəba nəjimiz var,
Eini gynəş sacьrkən yzymyzə ьşьqlar.

Bizim oz varlьmьzdьr qan icən dyşmənimiz.
O dujqusuz zəlijə qьda olmuş qanьmьz.
Zərbə! Tamam qoçalmьş fitnəkar qurda zərbə!
Səbəb onlar dəjilmi, qan tyfyrən bu hərbə?

Bundan belə zənginlər olsyn, qalmasьn gərək.
Aramьzda o ruhlar nəfəs almasьn gərək,
Dejə qorqunç ordular çəbhələrdən dondylər.
Donyşləri umulmaz bir səfərdən dondylər.

Zənginlərin tohfəsi: mohtəris hyquqlarь,
Qanun dejə, əməkci xalqlarь sojduqlarь.
Nə adət nə ən'ənə vardьsa jandьrdьlar.
Dedilər ki, dynjada jalьnьz birçə hyquq var.

O da bir azad əmək, bir də alьn təridir.
Tər və əmək həjatьn əsas təməlləridir.
Topraqlarь aldьlar, əkdilər, bəçərdilər.
Fabriklər də sevinçlə kəntlijə səs verdilər.

Ançaq jenə olkənin məçhul yfyqlərindən,
Qara bulutlar kibi aqdь bir sьra dyşmən.
Jeniligə zərbələr vurmaq ycyn cьqdьlar.
Jenə də əskijigi qurmaq ycyn cьqdьlar.

Ançaq indi əməkci kytlələr əskərdilər.
Top, tyfənglərі vardь, bytyn səfərbərdilər.
Toplandьlar, quruldu olkədə bojyk ordu.
Bu ordu dyşməninə axьr zərbəni vurdu.



Dyşmənə doş gərdilər, bir daq kibi durdular.
Cьlqьn həmlələrijlə dyşməni susdurdular.
Indi də bəçərirlər qazandьqlarь jeri.
Bu daq gevdəli ordu bir də qajьtmaz geri.
Sarsьlmaz bu olkədə əməkcinin hyququ.
Olkə onun olkəsi, əmək onun var joqu
Silah mohkəm sьqьlmьş onlarьn əllərində,
Şəhər kəndin jerində, kənt şəhərin jerində.
Olmuş, olaçaq işci oz-ozynyn sahibi,
Gynəş sənənə kibi, çahan donana kibi.
Bir qyvvə bu çahanda olmajьr, olmaz belə,
Ki, yz-yzə dajansьn işcinin qyvvəsilə.
Alqьş, dəmir bojlarь uzanmьşlara alqьş
Alqьş oz taleini qazanmьşlara alqьş

## SAQO.

I

Kəntli qardaş sənə dejirəm bunu.
Anla, bu sөzlərin əsil ruhunu.
Bu gөzəl sөzləri jaxşь dinlə sən.
Dinlərsən, azaçьq olsa dyşyrçən.
Bilərsən, qardaşьn Saqo nə etmiş.
Kimin xatirinə bu hərbə getmiş.
Necin bir qolu joq geri qajьtdь,
Necin gөrdykləri, onu ajьltdь.
Necin çytcy Saqo ta o zamandan.
Hərbə kəsilmişdir bir qatь dyşman.

II

Əvət çytcy Saqo doǵma kөjyndə.
Jaşardь olduqça bir açь gyndə.
Kөjyn kənarьnda bir evi vardь,
Topraǵь ikiçə qarьş olardь.

O da, kəntdən uzaq, daşlь, dikənli.
Işdən qalmazdь hec bir zaman əli.

Jazьq bytyn ili cəkərdi əmək.
Pajьzda—əlində bir parca ətmək.

O da, olmasajdь nөkər gedərdi.
Bir dejil, beş dejil Saqonun dərdi.

Ata, ana dyşgyn, nөkərdi Saqo.
Bir təhər evini saqlajьrdь o,

Beləjdi Saqoja maxsus gyzəran.
Cahan davasьna başlarkən Alman.
Cьqmajьrdь jazьq Saqonun başь.
Kimdir hazьrlajan bөjyk savaşь.
Dynja bu davaja qalqьşmьş necin.
Bunu çytcy Saqo—jaxşь—nə bilsin.
Saqo dedikləri—çytcy bir insan,
Nə bilirdi nədir: Frəng, ja Alman.
Saqonun bu oldu fəqət bildigi:—
Bir gyn jekə qarьn koxa gəldi ki,
«Çamaat—şəhərdən jeni kaǵьz var,
Çavanlarь əskər aparaçaqlar».

III

Nə zaman varlьlar çəbhəjə getmiş?
Bunu kimlər gөrmyş, kimlər eşitmiş?
Aləmə bəllidir ançaq «səfillər»
Daim silahlanьb gedirlər əskər.
Topladьlar kəndin joqsullarьnь.
Joqsullarьn əziz oǵullarьnь.
—Miqijə—koxanьn oǵluna fəqət;
Kimsə doqunmaǵa etmədi çyr'ət.
Necin? Jer yzyndə Miqi təkmidir?
Gөjlər baxcasьndan bir cicəkmidir?
Jaxşь, koxagilin məhlləsindən,
Hampo bu davaja getməjir nədən?

Jaxşь fələkligin «sevti nə olsun»?
Necin Saqo getsin, bunlar qurtulsun.
Bu sual o zaman cətin sualdь,
Tanьşь olanlar aq bilet aldь.

IV

Kəndin qьraqьnda atasь durmuş,
Bir umudsuz kibi bojnunu burmuş.
Mehriban oqlunu jola salьrdь.
Bə'zən dərin-dərin fikrə dalьrdь.
Qoça anasьnьn dolmuş gəzləri,
Insanь aqladьr qьrьq səzləri.
Lakin yrəgində kin var, zəhər var.
Qəlbində almanь, nemesi qarqar.
Fəqət jazьq ana bilməjir əsla.
Səbəb alman dejil, qanlь çidala.
Səbəb: joqsullarь boqan, əzəndir.
Ortada aşьrьb janda gəzəndir.

V

Bilməz jazьq ana, ixtijar ana,
Tyrkə, ermənijə, rusa, almana.
Kəndi varlьsьdьr: birinçi dyşmən,
Burda gynahkarmь bytyn bir alman.
Kəndin koxalarь—onlarьn qatь,
Ədavət onlarьn qəlbi-həjatь..
Xalqь bir-birinə vuran koxalar..
Kəndlinin qanьnь soran koxalar.



Səndən məs'udmudur Alman joqsulu?
Onun da gəzləri jaşlarla dolu.
O da əz oqlunu jola salmada
Tarlasь, baqcasь başsьz qalmada.

VI

Saqo qoçalara əlvida etdi,
Gənylsyz dyzəldi joluna getdi.
Gəjsyny ətyrdy, sonunçu dəfə
Baqdь gəz altьndan dərt bir tərəfə,
Orda, kəntlilərin dyz ortasьnda,
Gərdy minmiş Miqi kyrən bir ata
Yzyndə bir sevinç parlajьr onun,
Bicin ystə gedir saqrьda xurçun,
Bir də, gah udqunub, gah əskyrərək,
Jekə gevdəsini onə verərək
Ardьnça cijnində uzun bir cuxa,
Gərdy ki, oqluna bujurur koxa.

VII

Qəlbinə syzyldy hiçran jaqьşь.
Saqo hərbə getdi almana qarşь.
Kəntdə bir ixtijar atasь qaldь
Birdə ki, zavallь anasь qaldь.
Gəldi Saqogilin evinə koxa.
Koxa dedikləri—bu qara jaxa:
«Bir kasьb kişisən, saldatdьr oqlun,
Qoçalmьsan dyşyb qyvvədən qoiun.

Kişi. Mənim sənə təklifim budur:
Gəndərim janьna bir necə muzdur.
Picib gətirsinlər taxьllarьnь...
Dejərək, əkinin ixtijarьnь,
Jaqlь dillər təkyb qoçadan aldь.
Qoçanьn bir avьç taxьlь qaldь.

## VIII

Çəbhədən-çəbhəjə Saqo bu zaman,
Xalqь aqьr topla alьrdь nişan.
Ansьzьn jamaçdan bir top gylləsi
Ucarkən jyksəldi Saqonun səsi,
Saqo qan icində jьqьldь jerə
Kədərli gezlərlə baqdь gejlərə,
Nəfəsi tьqandь, dili dutuldu.
Saqo bilmədi ki, ançaq nə oldu.
Xəfif re'jasьnda gerdy ki, ançaq,
Anasь əlində bir dolu bardaq.
Əjilmiş ystynə su verir ona.
Ajьldь—Potrda bir xəstəxana.
Bir qolu kəsilmiş jetim, sahibsiz.

## IX

Burda çytcy Saqo aldь bir kaqьz.
Kaqьz atasьndan gəlmişdi. Baqdь:
Dərdli gezlərindən bir bulut aqdь.
Saqoja atasь jazmьşdь kəntdən,
ki: «Ən fəlakətli bir gyndəjəm mən.
Əkini tər-təmiz aşьrdь koxa,



Sonra sahibləndi bizim topraqa.
Qoça anan da ki, getdi rəhmətə,
Əzym də məhtaçam indi qismətə.
Pulun varsa əgər,
Bir qədər gendər,

## X

Saqo bir tərəfə qojdu kaqьzь,
Bir qədər sьzladь qəlbinin sazь.
«Nəjə dava olur, nejə kəndlilər
Bejlə, hərb zamanь alьnьr əskər
Yz-yzə dajanьb carpьşar onlar..
Jenə nətiçədə pərişan onlar.
Nejə bojnu joqun olanlar nejə,
Syrylməjir bejlə qanlь çəbhəjə.

## XI

Dyşyndy, kecirdi hejəçanlь anlar,
Jyzlərçə, minlərçə ijit oqlanlar,
Gəldi sьra-sьra gezynə durdu.
Həpsi dyşynçəli, həpsi məqrurdu.
Həpsi ez işini qojub gəlmişdi.
Jalancь dillərə ujub gəlmişdi.
Sankь tapşьraraq bejyk allaha.
Onlarь kim cəkmiş bu çədəlgaha.
Kimdir daqa, daşa bunlarь syrən,
Jetişmiş tut kibi jerə təkdyrən.
Onlarь kim vermiş qьlьnç aqzьna,
Kim qurban eləmiş elym qazьna.

Kim syrmyş onlarь bu uzaq jerə,
Səbəb nə, bu aqan qanlь sellərə.
Onlar gərmyşmy bu uzaq jerləri
Kim vermiş onlara bu tyfəngləri.

XII

Lazaret kynçyndə fikirləşirkən,
Bir sabah Saqoja dedilər birdən,
— Bizimlə birlikdə yzyn aq olsun.
Gəzyn ajdьn olsun, başьn saq olsun.
Padşah təxtindən vurulmuş jerə,
Hyrrijjət verilmiş Saqo, ellərə.
Saqo əz-əzynə dedi:—coq gəzəl,
Cьqdь lazaretdən cələ əlbəhəl.
Jeni doqmuş kibi anadan Saqo,
Bir bəjyk kycəni addьmladь, o,
Gərdy aləm ona jenə sojuqdur,
Kycədə dəjişən bir levhə joqdur.

XIII

Doqru əlym jaqmьş carьn baxtьna,
Fəqət o zulmkar carьn taxtьna,
Cьqьb oturmuşdu min bir hokmydar,
Varlьlar, zabitlər, aq generallar,
Joqdu barьşьqdan, flandan xəbər,
Atəş icindəjdi jenə çəbhələr.
Jenə də saldatlar gedirdi hərbə,
Yrəklərdə zəhər, əllərdə zərbə,



Saqo jol xarçьjcьn getdi divana,
Bir kimsə e'tina etmədi ona.

XIV

Saqo aç-jalavaç həmin şəhərdə,
Dutulmuş açlьqa dyşmyşdy dərdə.
Bir gyn qulaqьna dəjdi bir xəbər;
Gəlir Lenin adlь şanlь bir nəfər.
Dedilər nə qədər varsa əməkci,
Onlara olaçaq Lenin koməkci.
Aclarьn qullarьn rəhbəri o-dur.
Bytyn joqsullarьn rəhbəri o-dur.
Dutdu bu uqurlu gəlişdən xəbər,
O gyn aqьn-aqьn bytyn işcilər,
Həpsi həjəçanla qalqdь ajaqa.
Getdilər Lenini qarşьlamaqa.

XV

Elə ki, bu səzy Saqo eşitdi,
O da işcilərlə vaqzala getdi.
Saqo qabaqdajdь dejirdi tez-tez:
Əçəba nə zaman gələçək pojezd.
Jirmi vaqonlu bir vaqon gəldi.
Ortada bir urra səsi jyksəldi.
Bu səs işcilərin dəmir səsijdi.
Onlarьn mybariz bir nəqməsijdi
Bu səsə Saqo da səsini qatdь.
Lenin də əzyny dьşarь atdь:

Susdular. Onlara danьşdь Lenin,
Onlarьn coqijlə tanьşdь Lenin,
Sankь yrəklərdən tikən qopardь.
Xalqda bir həjəçan sevinçi vardь.

## XVI

Lenin xitab etdi: indijə qədər.
Sizin japdьqьnьz cьlqьn døjyşlər,
Ançaq aqalarьn jolunda olmuş.
Onlar bu døjyşdə səadət bulmuş
Sizi culqamьşdьr ølym, fəlakət
Indi zamanьdьr, jetər bu zylmət.
Silahь aqaja qarşь cevirin!
Devirin kecmişi, artьq devirin!
Sizin dyşməniniz burzujdur ançaq.
Onlarьn jolunda hərbə gedir xalq
Sizdən ət divarlar qajьran kimdir,
Odlu çəbhələrdə qьrdьran kimdir?
Siz ej hədər jerə ølən insanlar.
Sizin dyşməniniz onlardьr, onlar!
Onlar, bu dynjanь qana døndərir,
Onlar işçiləri hərbə gøndərir,
Hərbin planьnь biçən onlardьr:
Sizin qanьnьzь içən onlardьr.

## XVII

Artьq duramadь, hajqьrdь Lenin..
—Alьnsьn qarşьsь bu qanlь hərbin,
Døjyş olmalьdьr jalьnьz içərdə.
Vurub salmalьjьq burzuju dərdə
Istər alman olsun, rus olsun istər,
Nə etmişdir bizə zavallь əskər.
Saldatlarьn gøzy baqlьdьr hələ.
Onlarь burzujlar almьşlar ələ,
Alman işçisinə, əskərinə biz
Səmimi salamlar gøndərəçəgiz.
Ki, øz burzujunu øldyrsyn o da.
Didsin, parcalasьn, jandьrsьn o da.

## XVIII

Jenə Lenin dedi həmin jerdə ki,
Atəş qan pysgyrən çəbhələrdəki.
Syngylər cevrilmiş jalьnьz onlara,
Cynky onlar səbəb, aqan qanlara.
Saldatlar onlardan hesab cəkməli.
Myrdar qəlblərini didib søkməli,
Onlar qovulunça topraq—rənçbərin,
Fabriklər, mə'dənlər işləjənlərin..
Joldaş Lenin dedi: jyksəl bu jerdən,
Hesab cək haqqьnь qəsb edənlərdən,
Məzlum olmalьdьr zalьma asь,
Bu qavqa işçinin ən son qavqasь.

## XIX

Lenin belə dedi. Anladь Saqo.
Ølmyş anasьnь xatьrladь o,

Bytyn bu səhnələr jadьna dyşdy.
Fikrindən bir zalьm alaj otyşdy.
Koxanьn amansьz çanavarlьqь,
Atasьna olan zulumkarlьqь.
Dedi: haram olsun jaşajьş bana,
Syngyny soxmasam onun qarnьna,
Fikrinə bir qəzəb buludu endi,
Həmin, elə o gyn vaqona mindi.
Soqa kəndlərinə gəlib jetişdi
Bu aləm nə aləm bu iş nə işdi.
Gordy daş ystyndə daş qalmamьşdьr,
Sankь kimsə burda jurd salmamьşdьr:
Atadan, anadan, evdən xəbər joq.
Hec bir nişana joq, hec bir əsər joq.
Koxanьn əlinə kecmişdi topraq.
Japdьqь dəjyşdən Saqoja ançaq.
«Mənfəət» qalmьşdь bir kəsik qolu.
Dutdu koxagilə uzanan jolu.

## XX

Olduqça açьqlь, olduqça darqьn.
Bu alcaq, bu dəni zulumkarlьqьn,
Açьsь altьnda evə catьrkən
Koxanьn oqluna rast gəldi birdən
Gordy ki, sajmazça qapьda durur
Olduqça dəhşətli, olduqça maqrur.
Əlini mauzerin ystynə qojmuş
Sankь tunelləri əlilə ovmuş



Avara gəzməkdən şişmişdi bojnu,
Hər kəs caqьrьrdь—mauzerist—onu.

## XXI

Bərijə gəl, gerym a bizim gedə,
Jolundan cьqarsьn dejən get-gedə.
Iki qollu səni civin bilirkən,
Indi taj qolundan qorqaçaqam mən?
Dejə sajmaz kibi koxanьn oqlu,
Saqonu dindirdi qafasь dolu.
—Bizim topraqьmьz? sorurkən Saqo.
—Nə topraq,
Dejərək gylymsədi o.
Bir də topraq adь cəkmə ki, məl'un,
Salamat başьna elə bir ojun,
Acaram ozyn də mə'təl qalarsan.
Savuş, bir dəfəlik acьl başьmdan,
Dejə sol əlilə bьqьnь eşdi
Ansьzьn saq əli mauzerə kecdi.

## XXII

Mauzerist daşnaqьn işinə baqdь.
Oz doqma kəndini Saqo buraqdь.
—Təkrar Mosqvaja getmək istədi.
Jenidən «sijahət» etmək istədi:
Sovet qanunlarь işləjən jerdə,
Hampasьz ellərdə şən olkələrdə.

Iştə, bəjyk Gəmry şəhrinə gəldi.
O cətin jolları kecmək əngəldi.
Saqo Mosqvaja gedirdi necin?
Bilmək istəjirdi o bəjyk Lenin.
Erməni xalqына nələr dyşynyr.
Nə həjatlar, neçə işlər dyşynyr.

## XXIII

Çoşqun yrəgində Mosqva dejə,
Saqo kəntdən cьqьb gəldi Gəmryjə
Vaqzalda bir gənçi gərdy danьşdь
Həmin gənç adamla kəntdən tanьşdь.
Daim Saqogilə gəlib-gedərmiş.
Bu oqlan o jerə səfər edərmiş,
Qorqma Saqo dedi bu əllərim baq.
Bir aqşam daşnaqь jaqalajaçaq.

## XXIV

Gənç o qarşьdakь dəmir Əzdəri,
Gəstərib gəjsyny verdi iləri.
Dedi qardaş Saqo o bizimkidir,
Hədəfi vurmaqa hərəkət edir.
Bir də Mosqvaja getmə, burda qal
Gozləjir qarşьda bizi bir çidal.
Qaldь, bir həftəçə kecəndən sonra,
Əzdərin ystyndə cəkdilər hurra.
Doqrudur çənubu aldьlar ançaq,
Hələ jatmamьşdь o, kəhnə daşnaq.



## XXV

— Əlym daşnaqlara...
— Hurra .
Həkymət
Sovetlərə.. Saqo bir qoldan səqət
Olsa da,
Iştirak etdi davada.
Gəmry şəhərində, Qarś qəl'əsində.
Jenibajazidin hər guşəsində.
Sovet bajraqьnь qьldь tamaşa.
Hələ kəhnəligə əsirdi amma,
Zavallь rənçibər, çəhalətindən,
Xəbərsizdi Şura həkymətindən.

## XXVI

Sebo qoşununu topladь, gəldi.
Minlərçə mauzerist səsi jyksəldi.
Orda, dyz altь gyn carpьşdь onlar,
Fəqət zərbəmizdən etdilər fərar.
Bizə gərə gyçly dejildi Sebo
Qazaq daqlarьna cəkildi Sebo:

## XXVII

Firqəci olmuşdu o gyndən Saqo.
Bolşevik gənçlərlə bir il qədər o.
Bakьda qalaraq qajьtdь kəndə
Məqsədi: koxanьn oqlu həpəndə
Bir ojun bicməkdi.. gəldi gərdy ky:
Bytyn kənd dəjişmiş, onun gərdygy,

## XXVIII

Joqsullar ajaqa durmuş hampalar,
Daşnaqlar bysbytyn olmuş tarmar.
Saqo ətrafьna bir nəzər saldь..
Qalan-qulanьndan intiqam aldь.
Sovet hɵkyməti kəntdə quruldu,
Bulanьq dərələr aqdь, duruldu.
Kəntlilər sevinçlə girişdi işə,
Kotanlar tarlada cьqdь gərdişə.
Artьq dava joqdu, nə alman vardь
Nə tyrkyn, gyrçynyn topu gurlardь.

## XXIX

Indi kəntdə Saqo şura sədridir
Macqal qəzetinin bir myxbiridir
Kəntdə sɵz dyşəndə myharəbədən,
Leninin fikrini sɵjləjir həmən.
Kəntli, jaxşь-jaxşь dinlə Saqonu.
Gɵr dəva nə hala salmьşdьr onu.
Baq çytcy Saqonun kəsik qoluna
Inan həp sɵzynə, onun joluna.

## XXX

Bizim xalq ystyndə joqdur şərimiz,
Hərbin ziddinədir əməllərimiz,



Ançaq bizə qarşь cьqsa bir nəfər,
Ystynə od sacar qьrmьzь əskər.
Ɵlym burzujlara, ɵlym dyşmana
Jad ajaq dəjməz Sovetistana.

Sovet hɵkymətidir,
Işci rahətdir.

## LENIN və ƏLI.

I

Mosqva jerin qəlbi.
O Məkkədən coq əski,
Θilə Mosqva kibi,
Bejyk şəhər olmaz ki...
Bir şəhər ki, qajnaqьdьr fə'lənin.
Bir şəhər ki, quçaqыnda jaşadь Lenin
Pək uzaqdьr Trabzon,
Mosqvadan pək uzaq.
Trabzondan oraja,
Qaca bilməzsən jajaq.
Olsa qьzьlьn əgər,
Bir gəmijə əjləşər;
Dyz Batuma gələrsən.
Orda hazьr qatar var.
Ici dolu jolcular.
Batum—Tiflis.
Tiflis—Bakь.
Bakь—Rostov.
Sonra gedər, gedərsən,
Mosqvaja jetərsən.



Hər kəs bilir:
Gəmidə, bir.
Kyrək cəkəndir Əli.
Qabar, qabardьr əli.
Ajda alьr: yc-dərt lirə.
Səhər əmək—aqşam əmək.
Əmək uzun verməz ara.
Nə edəçək;
Onu sevir өz sahibi.
Jyk daşьjan bir mal kibi
Bəlkə maldan daha artьq.
Əli—jazьq...
Əli jalnьz əmək bilir.
Sahibi də syrmək bilir.

Əli coq sevir Lenini,
Uzaqdan da olmuş olsa,
Vermiş ona өz qəlbini,
Əli sevir Lenini.
Onunla, bir bəhrijjəci tanьşmьş.
Bəhrijjəli rusmuş;
Ona danьşmьş.
Danьşmьş, Lenin haqqьnda;
Bir coq sөz sөjləmiş ona.
Sonra əlini qojnuna.
Salmьş, almьş şəklini.
Ona gөstərmiş.
Lenin «qaroş»
Əli: coqmu.
Rus—bəs neçə.

Lenin var.
Burzuj joq.
Burzuj demək—zəngin demək.
Barьşmamьz əlbət dejil mymkyn demək.
Əfəndi, aqa, burzuj.
Başqasьnьn məhsulunu,
Bənimsəjən burzuj demək
Onlar çəkməzlər heç əmək,
Onlar ki, işləjən dejil,
Onlarьn ki,—gymyş sahil,
Bir də nərd,
Bir də, çiftə qajqьlь
Dəniz ki, xoş laçivərd
Əli dujmuş, anlamьş.
«Lenin—bojyk xəlifə»
«Bojyk xəlifə» ançaq,
Zənginlərdən pək uzaq.
Dostu—aç joqsullarьn,
Məhkumlarьn—qullarьn.
Өz əməkçi sevdasilə,
Sevir onu, janьr içi,
Trabzonlu Əli sevir,
Gormədigi Iliçi

II

Mosqva—qəm,
Bir ølçysyz, qara matəm.
Proletar jetim kibi,
darqьndь.



Kim ki, ona jaqьndь,
Bilirdi ki, ølmyş rəhbər..
Bir daha açmamaq yzrə,
Gøzlərini jummuş rəhbər.
Ojanьlmaz ujqu ilə,
Uzanmьş, ujumuş rəhbər.
Bu ujqu aqьr itgidir.
Itgi amansьz, bøjyk.
Qəlbimizdə aqьr jyk.
Itgi çətin,
Firqə—mətin.
Sьraları bərkitmiş.
Aqьr dəmir qyvvələrdən,
Min bir səngər dyzəltmiş.
O gyn bytyn proletariat,
Mosqva—laj-laj,
Bakь—səf-səf,
Tiflis—qat-qat,
Өz iradə qydrətini,
Bərkimiş betonlar kibi,
Bir qyvvə joq onlar kibi.
Bu sajsьz miljonlar kibi.
Firqəmizin ruhu jyksək.
Firqə bir qьrьlmaz polat.
Sarsьlmaz proletariat.
O itginin əvəzində
Qьrьlmaz min musqullu bir jumruq
Çanladьr baq
Dyşmənlərin gøzyndə.

Min-min dənin proletar
Bilirdi ki, bitməmişdir,
Dava gyny,
Bilirdi ki, bu hyçuma,
Keçirəçək gyçyny.
Toplajaçaq qyvvəsini,
Cъnlataçaq tunç səsini.
Toplajaçaq qolunu.
Toplajaçaq qabaran musqulunu.
Musqullarъn,
Qollarъn,
Sъqlaşaçaq arasъ.
Proletar diqtaturasъ
Boj atsъn dejə.
Ilicsiz keçəçək
Fəthə—mybarəzəjə.
Dynjanъ parcalajan,
Bir qъlъnç kibi radio.
Havada ucdu jajan,
Uçan radio...
Θlym saçan radio...
O gyn—
Tez jetişdi Mosqvadan Trabzona
Əli kysgyn.
Coq işləmiş o gyn Əli
Bədən tərli.
Jorqun—əzgin.
Qabar-qabar iki əli,
Fəqət işi bitməmişdi



Gyçdən dyşmyşdy qollarъ,
Aqrъjъrdъ musqullarъ.
Sallanъrdъ evə doqru.
Gəzlərinin nuru—
solqun
Θz-ozynə:səjlənirdi— jetməzmi ja
Əli sənin jorqunluqun.

Aqşam...
Sahil qaranlъqdъ:
Əli gedir evə doqru.
Gəryr dəniz qъjъsъnda
Bəhrijjəçi tanъş rusu.
Jaqъnlaşdъ:—salam versin,
Bir əski ərbab kibi.
Ona xoş yz gəstərsin.
Javaşça pъcъldasъn,
«—Lenin qaruş»
Jaqъnlaşdъ
Bəhrijjəçi
Fəqət «sərxoş»
Bəhrijjəçi xejli jorqun,
Baqъşlarъ bir gyl kibi,
Sakit, durqun,
Nə «izrasti»
Nə bir kəlmə,
Sankъ bizim bəhrijjəçi,
Darъlmъşdъ aləmə.
Javaşçadan dedi:—Əli Lenin daha joq

Başqa heç bir şej.
Uzaqlaşdь.
Əli şaşdь. Bu səz kəsdi ruhunu
Sankь bir daƣ kibi dalƣa vurdu onu
Bulutlandь gəzləri,
O qaranlьq səzləri,
Bəhriijəci Əli dujdu...

Jarь geçə,
Trabzon bərk ujumuş.
Gəj yzyndə gəzlərini,
Aj da jummuş
Itlər belə sakit səssiz,
Bir it kibi ojanьqdьr.
Fəqət keşik çəkən polis
Çevrəsinə baqьr polis.
Geçə jarь:
Qaranlьqda zija kibi.
Əsən şam aƣaçlarь.
Aƣaclar pьcьldajьr,
Danьşьr qьrьq-qьrьq.
Trabzon ujumuşsa,
Fəqət Əli ojanьq.
Əli gedir oƣru-oƣru,
Əli sanki bir oƣru.
Divarlarьn dibindən,
Qoşur zulmata doƣru.
Əli sankь bir oƣru.
Hara gedir.
— Əzy bilər,



Iştə Əli jaqьnlaşьr,
Bir binaja.
Qapьsьnda «nişan taxta»
Yzərində—
Oraq, çəkic.

Ora gedir oƣru kibi,
Gəj libas xajьn polis.
Şəhərdə bina adlanьr,
Qonsultat—Rus.
Jaqьnlaşьr oƣru kibi,
Gəj polisin janьndan,
Əli keçir qorqusuz.
Əli keçir bəjyrdən,
Jaqьnlaşьr qapьja.
Zəngi vurur, ətrafa,
Bir az gəz gəzdirərək,
Birdən zəngin zil səsindən
Dərin sykut içində,
Çapьr tərlan bir yrək.
Qapь açьlьr.
Girir içəri.
Jalьnьz xidmətçi hələ jatmamьş.
Xidmətçi tanьr:
Qardaş Əlini.
Onlar bə'zən barabar,
Jьƣьnçaƣa getmişlər.
Geçədir,
Geçdir.
Joldaş Əlijə qonsul lazьm.

— Qonsul...
— Ha, haha..
— Geçədir.
— Geçdir.
Ançaq Əlinin baxtь gətirir,
Qonsul birdən icəri girir.
«Lenin joqmu» Əli sorur.
Sykut aqьr bir cəkiç.

Pьcьldajьr.
«net qaroş?»

Və bir də jerə baqaraq,
Sankь bir şejdən qorqaraq,
Başьnь aşaqa əjir.
Kirimişçə, matəm, hərmət gəstərir.
Divar dibi uzaqlaşьr.

Başqa hec.
Hec bir şej joq sevinməgə.
Ja inki aqlamaqa,
— Salam joldaş Əlijə—
Ilicin işinə alqьş!



KITABЬN ICINDƏKILƏR

Səhifə

1. Cьlqьnlaşmьş izdihamlar . . . . . . . . . . . . . 5
2. El ycyn nəqmə . . . . . . . . . . . . . . . . 17
3. Saqo . . . . . . . . . . . . . . . . . . . . 30
4. Lenin və Əli . . . . . . . . . . . . . . . 46

1 m. 50 qəp
Çildi 25 qəp.

# Е. ЧАРЕНС

## СТИХИ

---

Азернешр
БАКУ—1934